# ANTİTERROR ŞƏHİDLƏRİ - VƏTƏNİ BÜTÖV EDƏNLƏR

## ABDULLAYEV SEYFİ FƏQAN OĞLU



Şəhid polis serjantı Seyfi Fəqan oğlu Abdullayev 22 sentyabr 1994-cü ildə Bakı şəhərinin Sabunçu rayonunda anadan olmuşdur. Orta təhsilini Bakı şəhər 148 saylı tam orta məktəbində alan Seyfi Azərbaycan Silahlı Qüvvələrinin sıralarında, "N" saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmət etmişdir. Hərbi xidmətini başa vurduqdan sonra mülki fəaliyyət göstərmişdir. Daha sonra isə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyində çalışmağa başlamışdır. 6 ilə yaxın polis orqanlarında çalışan Seyfi Abdullayev Daxili İşlər Nazirliyinin Çevik Polis Alayında xidmət edirdi.

19 sentyabr 2023-cü ildə saat 01 radələrində Füzuli rayonu ərazisində ağır yol-nəqliyyat hadisəsi baş vermişdir. Nəticədə polis serjantı Seyfi Abdullayev 2 polisimizlə birgə xidməti vəzifəsini yerinə yetirərkən Şəhidlik zirvəsinə yüksəlmişdir. Nəşi Şamaxı rayonunun Qəleybuğurd kəndində torpağa tapşırılmışdır. Şəhidimiz yaşasa idi, şəhid olduğu gündən az sonra, doğum günü olan 22 sentyabr 2023-cü ildə Bakı şəhərində onun nişan mərasimi keçiriləcəkdi.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Seyfi Abdullayev Azərbaycan Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

## ƏSGƏROV ƏLƏSGƏR ZAKİR OĞLU




Şəhid polis serjantı Ələsgər Zakir oğlu Əsgərov 12 may 1997-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur. 2003-cü ildə Hüseyn Cavid adına Naxçıvan şəhər 5 saylı tam orta məktəbə daxil olmuş, 2014-cü ildə həmin məktəbdən məzun olmuşdur. Həmin il Sumqayıt Dövlət Universitetinin İqtisadiyyat və İdarəetmə Fakültəsinə "Menecment" ixtisası üzrə qəbul olmuşdur. 2018-ci ildə ali təhsilini başa vurmuş və həmin ilin iyul ayından Azərbaycan Silahlı Qüvvələrinin sıralarında, "N" saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmət etmişdir. 2019-cu ilin iyul ayında hərbi xidmətini başa vurmuşdur. 12 may 2022-ci ildən Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Çevik Polis Alayında polis serjantı kimi çalışmağa başlamışdır.

19 sentyabr 2023-cü ildə saat 01 radələrində Füzuli rayonu ərazisində ağır yol-nəqliyyat hadisəsi baş vermişdir. Nəticədə polis serjantı Ələsgər Əsgərov 2 polisimizlə birgə xidməti vəzifəsini yerinə yetirərkən Şəhidlik zirvəsinə yüksəlmişdir. Nəşi 20 sentyabr 2023-cü ildə doğulduğu Naxçıvan şəhərində torpağa tapşırılmışdır.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Ələsgər Əsgərov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

## MƏMMƏDOV RASİM OKTAY OĞLU




Şəhid polis serjantı Rasim Oktay oğlu Məmmədov 8 oktyabr 1987-ci ildə Bakı şəhərinin Xətai rayonunda anadan olmuşdur. Orta təhsilini Bakı şəhər 254 nömrəli tam orta məktəbində aldıqdan sonra Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına qəbul olmuşdur. Burada ali təhsilə yiyələnən Rasim Azərbaycan Silahlı Qüvvələrinin sıralarında, "N" saylı hərbi hissədə xidmət etmişdir. Hərbi xidmətini bitirdikdən sonra Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Çevik Polis Alayında çalışmağa başlamışdır.

19 sentyabr 2023-cü ildə saat 01 radələrində Füzuli rayonu ərazisində ağır yol-nəqliyyat hadisəsi baş vermişdir. Nəticədə polis serjantı Rasim Məmmədov 2 polisimizlə birgə xidməti vəzifəsini yerinə yetirərkən Şəhidlik zirvəsinə yüksəlmişdir. Nəşi Bakı şəhərinin Xəzər rayonunun Şüvəlan qəsəbəsində torpağa tapşırılmışdır. Şəhidimiz ailəli idi, Rüstəm və Rəsul adlı övladları yadigar qaldı.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Rasim Məmmədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

## ABBASOV MEHTİ ƏMRAH OĞLU

Şəhid əsgər Mehti Əmrah oğlu Abbasov 4 iyul 2004-cü ildə Masallı rayonunun Sığıncaq kəndində anadan olmuşdur. Şəhid Məhəmməd Qarayev adına Masallı rayon Sığıncaq kənd tam orta məktəbində orta təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Mehti Abbasov Səfərbərlik və Hərbi Xidmətə



Çağırış üzrə Dövlət Xidmətinin Masallı rayon şöbəsi tərəfindən hərbi xidmətə çağırılmışdır. Çağırışa əsasən, Mehti Abbasov müddətli həqiqi hərbi xidmətə başlamışdır. Hərbi xidmət zamanı çevikliyi ilə seçilən Mehti nümunəvi bir əsgər kimi xidmət edirdi.

Mehti Əmrah oğlu Abbasov 19 sentyabr 2023-cü ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən Qarabağ bölgəsində silahlanan separatçı erməni hərbi birləşmələrinə qarşı başlanan lokal antiterror əməliyyatlarında iştirak etmiş, Ağdam istiqamətində gedən döyüşlərdə fərqlənmiş, erməni qəsbkarlarının zərərsizləşdiril-məsində və torpaqlarımızın azad olunmasında böyük rəşadət göstərmişdir. Əsgər Mehti Abbasov 20 sentyabr 2023-cü ildə Ağdam istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına Şəhidlik zirvəsinə ucalmışdır. Nəşi 21 sentyabr 2023-cü ildə doğulduğu Masallı rayonunun Sığıncaq kəndində torpağa tapşırılmışdır. Şəhidimiz subay idi.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Mehti Abbasov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

**(Davamı var)**

**SEVİNDİK NƏSİBOĞLU**
***11-ci sinif şagirdi, şair-publisist, AJB üzvü***

***(İstifadə edilmiş mənbələr: oxu.az, report.az, qafqazinfo.az, unudulmazlar.az)***

